Azərbaycan Respublikası Təhsil Nazirliyinin
“21” dekabr 2009-cu il tarixli 1421 nömrəli əmri ilə

3 saylı əlavə təsdiq edilmişdir.

Bu sənəd elektron tədris resurslarının (ETR) ekspertizasının qaydalarını, tərkibini və ardıcıllığını müəyyən edir. Ekspertiza Azərbaycan Respublikası Təhsil Nazirliyinin qrifinin verilməsini müəyyənləşdirmək üçün keçirilir.

**1. Ümumi qaydalar**

1.1. Elektron tədris resursları proqram vasitələrinin, fənlərin məzmuna tabe olan rəqəmli səs və video-məhsulların sintezinin nəticəsidir. İnformasiyanın təqdim olunmasının bütün məlum üsulları: mətn, statik, dinamik, real və sintezləşdirilmiş video-məhsul, real və sintezləşdirilmiş audio-məhsul bənzərsiz rəqəmli formatda ETR-in tərkibinə daxildir. ETR-də modelləşdirmə üsullarından istifadə edilir. ETR aparat-proqram kompüter kompleksinin bazasında istifadəçi ilə interaktiv rejimdə fəaliyyət göstərir.

1.2. Elektron tədris resursları aşağıdakı istiqamətlərdə qurulur:

*təyinat baxımdan:*

- tədris prosesinin dəstəklənməsi və inkişafı (tədris ETR),
- informasiya mənbəyi və soraqça tipli ETR,
- ümummədəni xarakterli ETR,

*icra baxımından:*

- optik (CD, DVD,....) və maqnit (disket, ZİP, ....) daşıyıcılarda resurslar,
- qlobal kompüter şəbəkələrində resurslar,
- lokal kompüter şəbəkələri üçün ETR,
- komplektləşdirilmiş ETR (disk/ şəbəkə),

*təhsil səviyyələri baxımından:*

- məktəbəqədər,
- ümumi orta,
- peşə-ixtisas,
- əlavə,
- sağlamlıq imkanları məhdud şəxslər üçün

1.3. Ekspertizaya elektron daşıyıcılarda kütləvi tirajla nəzərdə tutulmuş tədris yönümlü ETR, SCORM meyarlarına cavab verən, qlobal kompüter şəbəkələrində nəşr edilmək üçün nəzərdə tutulmuş, yaxud əvvəllər nəşr edilmiş, təhsil müəssisələri qrupunun və əhalinin əkslər hissələrinin marağını əks etdirən resurslar qəbul edilir.

1.4. ETR ekspertizası zamanı bütünlükdə məhsula sahibkarlıq hüququnun olmasına, məhsulun və istifadə olunan materialların lisenziya saflığına, Azərbaycan Respublikasının "Müəlliflik hüququ və əlaqəli hüquqlar haqqında" Qanununa, Azərbaycan Respublikasının qoşulduğu Beynəlxalq saziş və konvensiyalara uyğunluğa xüsusi diqqət ayrılır.

## 2. Məhsulun təqdim olunması və qeydiyyatı

Nazirliyin qrifinin verilməsi məsələsini həll etmək üçün İddiaçı (müəllif kollektivinin nümayəndəsi) Nazirliyin ETR üzrə Qiymətləndirmə Şurasına (ETR QŞ) aşağıdakı sənəd və materialları göndərir:

2.1. *ETR-ə mülkiyyət hüququ olan müəllif kollektivinin məktubu.* Bu məktubda ETR haqqında aşağındakı qısa məlumat verilməlidir:

- Məhsulun adı və daşıyıcının tipi;
- Hazırlayanın adı, hazırlama ili və yeri;
- İnterfeys dili;
- Hansı tədris proqramı və / və ya tədris fənni üzrə hazırlanıb;
- Hansı yaş qrupu üçün nəzərdə tutulub;
- Təyinatı (tədris, informasiya-arayış, ümumi mədəni);
- Planlaşdırılan tiraj, yaxud istifadəçilərin gözlənilən sayı.

2.2. *Rəsmi qeydəalma şəhadətnaməsinin surəti* (mülkiyyət hüququ göstərilməklə). Məhsulda istifadə edilmiş material və alətlərin lisenziya təmizliyini təsdiqləyən sənədlər də əlavə olaraq ekspertiza zamanı tələb oluna bilər.

2.3. *Elektron daşıyıcıda üç nüsxədə məhsul* (nəşrə hazırlanmış və ya nəşr edilmiş), yaxud *qlobal kompüter şəbəkəsində müraciət üçün dəqiq ünvan*.

Təqdim olunmuş materiallar ETR QŞ tərəfindən qeydiyyata götürülür və elektron məhsulun nüsxələri ekspertlərə paylanılır.

### 3. Ekspertizanın tərkibi və aparılması

3.1. Elektron tədris resurslarının tam ekspertizası müxtəlif ixtisas sahələri üzrə mütəxəssislərin birgə yekun rəyləri, yəni müxtəlif növ ekspertizaların ümumiləşdirilməsi əsasında təqdim olunur. Elektron tədris resursları aşağıdakı tərkibdən ibarət *kompleks ekspertizadan* keçirilir:

- texniki ekspertiza,
- məzmun ekspertizası,
- dizayn-erqonomika ekspertizası.

*Texniki (proqram-texniki) ekspertiza* məhsulun işə yararlılığını və onun müxtəlif konfiqurasiyalı aparat-proqram kompleksləri ilə uzlaşmasını müəyyən edir, qəbul edilmiş standartların icrasını və analoji məhsulların müasir texniki səviyyəsinə uyğunluğunu qiymətləndirir.

*Məzmun ekspertizası* resursun təhsilin dövlət standartlarına, nümunəvi tədris proqramlarına, başqa normativ sənədlərin tələblərinə uyğunluğunu, məzmun tamlığını müəyyən edir, onun pedaqoji və metodik xüsusiyyətlərini, təşkil olunmuş təlim prosesi və ya müstəqil məşğələlər üçün yararlılığını qiymətləndirir.

*Dizayn-erqonomik ekspertiza* ETR komponentlərinin keyfiyyətini və bütünlükdə dizaynını, məhsulun psixoloji, erqonomik, bədii keyfiyyətini qiymətləndirir.

Beləliklə, hər elektron tədris resursu ən azı üç müxtəlif sahə üzrə ekspertizadan keçirilir. Bir qayda olaraq hər növ ekspertizanı 1 - 3 ekspert aparır.

3.2. Əhatəli ekspertiza aparmaq üçün, adətən, ETR QŞ tərəfindən təyin edilmiş ekspertlər cəlb olunur. Texniki və dizayn-erqonomik ekspertizanı ETR QŞ-nin üzvləri aparır. Lazım olarsa, ETR QŞ bütün növ ekspertizalar üçün şuranın tərkibinə müvafiq ixtisaslı müstəqil ekspertlər cəlb edə bilər.

3.3. Kompleks ekspertiza 2 aydan artıq olmayan müddətə keçirilir. Hər növün ekspertizası zamanı *ekspert qiymətləndirilməsi attestatı* doldurulur. Doldurulmuş və müvafiq ekspertlər tərəfindən imzalanmış attestatlar (hər biri 3 nüsxədən ibarət 3 attestat) ETR QŞ-nin növbəti iclasına bir həftə qalmışdan gec olmayaraq şuranın sədrinə verilir.

3.4. Şuranın iclasında uyğun növ üzrə ekspertiza aparan ekspertiza qrupundan ən azı bir nəfər iştirak edir. İclasa İddiaçının nümayəndəsi də dəvət oluna bilər. İclasda ekspert qiymətləndirməsinin attestatları nəzərdən keçirilir. İddiaçının nümayəndəsi müzakirə olunan məhsul haqqında qısa təqdimat keçirmək hüququna malikdir. Müzakirə nəticəsində qərar qəbul edilir və yekun forma – ETR QŞ-nin yekun rəyi doldurulur. Həmin formada məhsula ümumi qiymət və Təhsil Nazirliyinin qrifinin verilməsi barədə şuranın məsləhəti verilir.

3.5. Şuranın iclasında aşağıdakı qərarlardan biri qəbul oluna bilər:

- qrif verilməsi Təhsil Nazirliyinə tövsiyə olunsun.

- sonradan şuranın iclasında baxılmaq üçün ETR üzərində yenidən işlənilməsi İddiaçıya məsləhət bilinsin.
- qrif verilməsi barədə iddia rədd edilsin.

3.6. Müsbət qərar qəbul edildiyi halda şura Azərbaycan Respublikası Təhsil Nazirliyinin struktur bölmələrinin normativ sənədlərinə, təklif və göstərişlərinə uyğun olaraq, eləcə də İddiaçının arzusu nəzərə alınaraq

- dərslik,
- dərs vəsaiti,
- əyani tədris vəsaiti,
- alternativ təhsil vəsaiti,
- müntəxəbat (informasiya-sorğu mənbəyi),
- praktikum (o cümlədən çalışmalar).

"... kimi icazə verilib", yaxud "... kimi tövsiyə olunub" qrifinin verilməsini təklif edir.

Ekspertizaya ilk dəfə təqdim olunan ETR yalnız "icazə verilib" qrifinə iddia edə bilər. "İcazə verilib" qrifindən sonra ən azı 1 (bir) il müddətində sınaqdan keçmiş resurslar "tövsiyə olunub" qrifinə iddia edə bilər. "Dərslik kimi icazə verilib" qrifi isə yalnız "dərs vəsaiti kimi icazə verilib" qrifindən sonra təkrar müsbət ekspertizadan sonra təklif oluna bilər.

3.7. Şuranın iclası o zaman qanuni hesab olunur ki, onun üzvlərinin ən azı üçdə iki hissəsi iclasda iştirak etsin. İclasda iştirak edən şura üzvlərinin yarısından çoxu lehinə səs verərsə qərar qəbul olunmuş hesab edilir. Səslər bərabər olarsa sədrin rəyi həlledici hesab olunur.

3.8. Şuranın hər bir ETR üzrə rəyi yekun qərar kimi rəsmiləşdirilir, həmin qərar şuranın sədri, yaxud şura sədrinin müavini tərəfindən (əgər müzakirə zamanı iclası sədr müavini aparmışsa) imzalanır. Şuranın qərarının, eləcə də ETR ekspert qiymətləndirilməsi attestatının surətləri İddiaçıya və Nazirliyin müvafiq struktur bölməsinə təqdim olunur.

3.9. ETR QŞ tərəfindən qəbul edilmədikdən sonra yenidən ETR müzakirə üçün təkrar Nazirliyə təqdim oluna bilər. Bunun üçün məhsul iradlar nəzərə alınmaqla təzədən işlənməli və imtinadan azı üç ay sonra təqdim olunmalıdır.

3.10. Qrifin səlahiyyət müddəti 3 ildir.

## 4. Elektron tədris nəşrinə yekun ekspert rəyinin tərtib olunması

4.1. Ekspertin (ekspertlər qrupunun) işinin nəticəsi ETR QŞ-yə təqdim olunmuş ETR-in müvafiq növü üzrə kompleks ekspertizasının yekun rəyi (ekspert qiymətləndirilməsi attestatı) hesab olunur. Yuxarıda göstərilən üç qərardan birinin qəbul olunması üçün ekspert rəyi əsas götürülür.

4.2. Bir növ üzrə ekspertizanı bir neçə ekspert keçirdiyi halda bir razılaşdırılmış yekun rəy

(ekspert qiymətləndirməsi attestatı) təqdim olunur. Fikir ayrılığı olarsa istənilən ekspert özünün xüsusi yekun rəyini təqdim edə bilər.

4.3. Əgər təqdim olunmuş sənədlər, materiallar və proqram məhsulları ETR-in keyfiyyətli ekspertizasını keçirməyə imkan vermirsə, ekspert ekspertizadan imtina etmək hüququna malikdir.

4.4. Ekspert ETR-in konkret misallarla əsaslandırılmış xüsusiyyətlərini göstərməlidir. Ekspert ekspertizanın yekun rəyinə müəyyən etdiyi səhvlərin, qeyri-dəqiqliyin, çap səhvlərinin siyahısını da əlavə edə bilər. Ekspert ETR-in qiymətləndirilməsi üzrə öz təkliflərini aşağıdakı rəylərdən biri şəklində göstərə bilər:

- təyinatın məqsədinə uyğun olaraq istifadə oluna bilər;
- müəyyən istiqamətlərdə (istiqamətlər sadalanır) üzərində əlavə iş aparmaqla şuranın gələcək iclasında baxılması məsləhət bilinir;
- təhsildə istifadə olunması məsləhət bilinmir.

4.5. Ekspert rəyləri hər bir ekspert (ekspertlər qrupu) tərəfindən üç nüsxədə ETR QŞ-yə təqdim edilir. Bütün nüsxələr ekspert (ekspertlər qrupu) tərəfindən imzalanmalıdır.

## Elektron tədris resurslarının kompleks ekspertizası və onların keyfiyyətlərinin qiymətləndirmə meyarları:

Elektron tədris resursları (ETR) mürəkkəb məhsul olmaqla, müasir texnikanın nailiyyətlərini, fənn sahələri üzrə mövzuları və tədris metodikasını, dizayn və bədii keyfiyyətləri özündə birləşdirir. Doğrudur, kitabla müqayisədə ETR üçün müəyyən proqram-texniki kompleks tələb olunur. Lakin elektron audiovizual tədris sistemləri bu gün üçün məlum olan mətn, nitq, musiqi, foto, video, qrafika, animasiya və hətta virtual reallığın kombinə edilmiş interaktiv komponentlərini də özündə əks etdirən bütün təqdimetmə növlərini özündə birləşdirir. Elektron multimedia resursu yalnız mürəkkəb elmi-texniki məhsul deyil, o, həm də məzmunun dolğunluğu, metodik tapıntı, yaradıcılığın yüksək səviyyəsi, əsil incəsənətdir.

Kitabın ekspertizasından elektron tədris resursunun ekspertizasına keçid müstəvidən çox ölçülü fəzaya keçidə bənzəyir. Təbii ki, bu fəzada pedoqoji, metodik, yaradıcılıq imkanları daha yüksəkdir, ancaq məhsulun texnologiyasını və keyfiyyət meyarlarını təyin etmək daha mürəkkəbdir.

Dünya təcrübəsi nəzərə alınaraq ETR-in kompleks ekspertizası və onun keyfiyyətinin qiymətləndirilməsi üçün aşağıdakı ekspertizaların aparılması gərəkli sayılıb:

- texniki ekspertiza;
- məzmun ekspertizası;
- dizayn-erqonomika ekspertizası.

Beləliklə, hər ETR-i ən azı müxtəlif ixtisaslı üç ekspert araşdırmalıdır (təcrübədə hər ixtisasdan 2-3 ekspert olmaqla, cəmi 6-dan 9-a qədər ekspert). Onların hər biri müvafiq Ekspert Qiymətləndirməsi Attestatını doldurur, baxılmış məhsulun keyfiyyətinə ballarla qiymət verir.

## Texniki ekspertiza

*Texniki ekspertiza* ETR-in müxtəlif konfiqurasiyalı proqram-texniki komplekslərdə (ən azı üç) işləkliyini qiymətləndirir. Bu zaman aşağıdakılar nəzərdən keçirilir:

- ETR-in beynəlxalq SCORM standartlarına cavab verməsi, resursların internetdə eyni zamanda bir çox istifadəçi tərəfindən açıla biləcək web interfeysinə malik olması,resursların həm vahid şəkildə həm də ayrı-ayrı istifadə oluna biləcək komponentlərdən ibarət olması;
- məhsulun sistemə quraşdırılması və sistemdən uzaqlaşdırılması (tələb olunan yaddaş, standart proqram təminatının avtomatik quraşdırılmasının korrektliyi, uzaqlaşdırılma (deinstalyasiya) zamanı özəl elementlərin sistemdən çıxarılması və s. );
- funksional sınaq (aktiv zonaların, bütün nəzərdə tutulmuş funksiyaların, məntiqi keçidlərin işləkliyi, multimediya komponentlərinin resurs tutumu və keyfiyyəti və s.);
- proqramın reallaşdırılmasının keyfiyyəti (təxribatlar, başqa proqramlarla paralel iş zamanı özünü aparması, sorğulara cavab vermə sürəti və s.);
- məhsulun lokal şəbəkədə işləməsi.

## Məzmun ekspertizası

*Məzmun ekspertizası* fənn sahəsində məzmunun dolğunluğunu, ETR-in pedaqoji və metodik xüsusiyyətlərini qiymətləndirir.

Materialın növünə, predmetinə, tərkibinə görə yerləşdirilməsi, ən yaxın analoqları ilə müqayisəli xarakteristikası nəzərdən keçirilir.

- Məzmunun milli kurikulum tələblərinə cavab verməsi.
- materialın həcminin və mövzunun işlənmə dərəcəsinin qiymətləndirilməsi (ixtisas tələblərinə görə məcburi minimuma uyğunluq, aktuallıq, yenilik, orijinallıq və s.);
- məzmunun bütünlükdə qiymətləndirilməsi (faktoqrafik, ideoqrafik, praqmatik məzmun, mövzunun tam mənzərəsinin formalaşdırılması və s).
- pedaqoji qiymətləndirmə (müəllimin, şagirdin maraqlarına uyğunluq, materialın təşkili, kulturoloji tərkib və s.);
- Məhsulun metodiki dolğunluğu (istifadə olunan metodikaların, nəzarət sisteminin, variantlılıq prinsiplərinə uyğunluğun və s. qiymətləndirilməsi).

## Dizayn-erqonomika ekspertizası

*ETR-in dizayn-erqonomika ekspertizası* audiovizual komponentlərin keyfiyyətini, məhsulun psixoloji, erqonomik və bədii keyfiyyətlərini qiymətləndirir. Bu ekspertizanın mürəkkəbliyi ondan ibarətdir ki, o, məhsulu hazırlayanın məharətini (zövqünü) qiymətləndirir.

Dizayn-Erqonomika Attestatına daxildir:

- bədii tərkibin qiymətləndirilməsi (multimedia vasitələrindən istifadə dolğunluğu və harmonikliyi, multimedia komponentlərinin orijinallığı və keyfiyyəti və s.);
- interaktivin təşkilinin qiymətləndirilməsi;
- erqonomikanın, istifadə rahatlığının qiymətləndirilməsi (intuitiv aydınlıq, səmimilik, naviqasiya rahatlığı və s.);
- istifadənin sadəliliyinin qiymətləndirilməsi.

**Kompleks ekspertizanın sənədləşdirilməsi**

Üç ekspertiza başa çatdıqdan və Attestatların ETR QŞ-nin iclasında müzakirəsindən sonra yekun forma - ETR-in Ekspertiza Aktı doldurulur. Bu aktda məhsulun ümumi keyfiyyəti ballarla (0-dan 100-dək) göstərilir.

**I. Elektron tədris resurslarının texniki ekspertizasının Attestatı**

| Elektron tədris resursu haqqında əsas məlumatlar | |
|---|---|
| Daşıyıcının tipi | |
| Məhsulun adı | |
| Hazırlayan | |
| Hazırlanma ili | |
| Ölkə | |
| Dil(lər) | |
| Fənn(lər) | |
| Şagirdlərin yaşı | |
| Məhsulun təyinatı | |
| Başqa məlumatlar | |

Elektron audiovizual tədris sisteminin müxtəlif konfiqurasiyalı proqram-texniki komplekslərdə (PTK) işləmə qabiliyyətinin yoxlanması

<table>
<tr><th rowspan="3">PTK-nın xarakteristikaları</th><th colspan="4">PTK-ların konfiqurasiyası</th></tr>
<tr><th rowspan="2">Elan edilmiş minimal sistem tələbləri</th><th colspan="3">Texniki ekspertiza üçün istifadə edilmişdir*</th></tr>
<tr><th>PTK-1</th><th>PTK-2</th><th>PTK-3</th></tr>
<tr><td>Prosessor, takt tezliyi</td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Əməli yaddaş</td><td></td><td></td><td></td><td></td></tr>
<tr><td>Video yaddaş</td><td></td><td></td><td></td><td></td></tr>
</table>

| | | | | |
|---|---|---|---|---|
| Monitor | | | | |
| Səs kartı | | | | |
| CD disk sürəni (sürət) | | | | |
| Əməliyyat sistemi (ƏS) | | | | |

* PTK-1, PTK-2, PTK-3-ün konfiqurasiyaları elan edilmiş minimal sistem tələblərindən aşağı olmamalıdırlar.

1. Məhsulun sistemdə quraşdırılması/uzaqlaşdırılması

| № | Qiymətləndirmə parametrləri, xarakteristikaları və növü | PTK-1 | PTK-2 | PTK-3 |
|---|---|---|---|---|
| 1. | Tələb olunan disk yaddaşı (həcmi göstərməli) | | | |
| 2. | ƏS-ə quraşdırmadan əvvəl müdaxilə (hə/yox) | | | |
| 3. | ƏS-nin yenidən yüklənməsinin gərəkliyi (hə/yox) | | | |
| 4. | Avtobaşlatma (autorun) (hə/yox) | | | |
| 5. | Məhsulun dəstinin yetərli olması (gərəkli proqram-realizatorların, şriftlərin və s. olması) (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 6. | Məhsulun işləməsi üçün vacib olan PTK-nın konfiqurasiyası, ƏS-nin və əlavə proqram təminatının köklənməsi komponentlərinin versiyasıyla bağlı təriflərinin və sorğuların korrekt olması (media-pleyerlər, Quick Time və s.,) (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 7. | Çatışmayan PT, şriftlər və s. avtomatik quraşdırılmasının korrektliyi (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 8. | Quraşdırma proqramının (instalyatorun) səmimi işi (sorğular, dəyişikliklər haqqında xəbərdarlıq və s.) (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 9. | Deinstalyasiya zamanı ƏS-nin ilkin parametrlərinin bərpasının korrektliyi (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 10. | Xüsusi elementlərin uzaqlaşdırılmasının korrektliyi (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 11. | Digər (ekspertin baxımına görə; göstərməli): | | | |

Ekspertin fikrinə görə məhsulun ayrı-ayrı PTK-larda quraşdırılması / uzaqlaşdırılmasının önəmli xüsusiyyətləri (əgər varsa)

______________________________________________

“Məhsulun sistemdə quraşdırılması / uzaqlaşdırılması” bölməsi üzrə ümumi qiymət (0-dan 10 bala qədər): _______

2. Funksional sınaq

| № | Qiymətləndirmə parametrləri, xarakteristikaları və növü | PTK-1 | PTK-2 | PTK-3 |
|---|---|---|---|---|
| 1. | Aktiv zonaların, idarəetmə düymələrinin, hiperlinklərin və s. işləmə qabiliyyəti (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 2. | Məhsulun elan olunmuş bütün funksiyalarının və imkanlarının işləmə qabiliyyəti (internet, çap, köçürmə və s.) (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 3. | Düz və əks istiqamətlərdə bütün məntiqi keçidlərin işləmə qabiliyyəti (q/kafi, kafi, yaxşı, əla) | | | |
| 4. | Multimedia komponentlərinin keyfiyyəti və işləmə qabiliyyəti | | | |
| 5. | Çox istifadəçi və/və ya müştəri-server rejimində işləmə qabiliyyəti | | | |
| 6. | Digər (ekspertin baxımına görə; göstərməli): | | | |

Ekspertin fikrincə məhsulun müxtəlif PTK-larda fəaliyyətinin xüsusiyyətləri (əgər varsa)

“Funksional sınaq” bölməsi üzrə ümumi qiymət (0-dan 12 bala qədər): _____

3. Proqram realizasiyasının keyfiyyəti

| № | Xarakteristika | Qiymət (q/kafi, kafi, yaxşı, əla) |
|---|---|---|
| 1 . | Provokasiyalar zamanı özünü aparması , sistem dağıldıqda və ya işləmə qabiliyyətini itirdikdə diaqnostikanın, xəbərdarlıqların olması, işini davam etdirməsi | |
| 2. | Paralel olaraq əlavə proqramların çalışdırılması zamanı özünü aparması | |
| 3. | İstifadəçinin sorğularını cavablandırma sürəti | |
| 4. | Digər (ekspertin baxımına görə; göstərməli): | |

"Proqram realizasiyanın keyfiyyəti" üzrə ekspertin önəmli qeydləri (əgər varsa)

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

"Proqram realizasiyanın keyfiyyəti" bölməsi üzrə ümumi qiymət (0-dan 8 bala qədər):____

ETR-in ümumi qiyməti (0-dan 30 bala qədər): _____

Şərh (ekspertin baxımına görə)

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

______________________________________________________________________

## II. Elektron tədris resurslarının məzmun ekspertizasının Attestatı

| Elektron tədris nəşri haqqında əsas məlumatlar | |
|---|---|
| Daşıyıcının tipi | |
| Məhsulun adı | |
| Hazırlayan | |
| Hazırlanma ili | |
| Ölkə | |
| Dil(lər) | |
| Fənn(lər) | |
| Şagirdlərin yaşı | |
| Məhsulun təyinatı | |
| Başqa məlumatlar | |

1. Məzmunun qiymətləndirilməsi

| № | Xarakteristika | Qiymət (q/kafi, kafi, yaxşı, əla) |
|---|---|---|
| 1. | Məhsulun tipinə, adı çəkilən fənnin əhatə olunmasına və məzmununa uyğunluğu | |
| 2. | Baza tədris planlarına uyğunluğu | |
| 3. | Milli kurikulumun tələblərinə cavab verməsi | |
| 4. | Məzmunun orijinallığı və yeniliyi | |
| 5. | Faktoqrafik məzmun (daha əhəmiyyətli məlumatların istifadə olunma dərəcəsi və xarakteri üzrə) | |
| 6. | Materialın dəqiqliyi və sistemli təşkil olunması | |
| 7. | Mövzuların və tapşırıqların növlərinin kifayət qədər müxtəlifliyi | |
| 8. | Dünyanın bütöv mənzərəsinin formalaşması məsələsinə uyğun olaraq, verilmiş bilik sahəsinin qonşu sahələrlə qarşılıqlı əlaqələrinin qurulması | |
| 9. | Təqdim olunmuş əlavə materialların lazımi qədər olması (qlossari, lüğət və s.) | |
| 10. | Tədris fənninin məzmunu baxımından istifadə olunan illüstrativ materialın keyfiyyəti | |
| 11. | Digər (ekspertin baxımına görə; göstərməli): | |
| **Məzmunun ümumi qiyməti 0-dan 20 bala qədər** | | |

2. Psixoloji-pedaqoji qiymətləndirmə

| № | Xarakteristika | Qiymət (q/kafi, kafi, yaxşı, əla) |
|---|---|---|
| 1. | Tədris məlumatlarının, ifadə məntiqinin şagirdlərin yaşına və baza hazırlığının səviyyəsinə uyğunluğu | |
| 2. | Tədris məlumatlarının, ifadə məntiqinin tədrisin səviyyəsinə, ixtisaslaşmaya və şagirdlərin tələbatına uyğunluğu | |
| 3. | Elm və mədəniyyət anlayışlarının və faktlarının istifadəsinin şagirdlərin inkişaf və hazırlıq səviyyələrinə adekvat olması | |
| 4. | Təhsil mühütinin komfort olması | |
| 5. | Situativ bacarıq və vərdişlərin formalaşması | |
| 6. | Dayanıqlı diqqətin saxlanma imkanları | |
| 7. | Təhsildə inkişaf edən komponentlərdən istifadə | |
| 8. | Dərketmə aktivliyinin stimullaşdırılması | |
| 9. | Kreativliyin motivasiyası | |
| 10. | Bilikləri müstəqil əldə etmək vərdişlərinin formalaşması | |
| 11. | Şagirdlər arasında əməkdaşlığın inkişaf etməsinə təsiri (kollektiv tədris fəaliyyəti) | |
| 12. | Şagirdin texniki hazırlıq səviyyəsinə olan tələblərə uyğunluğu | |
| 13. | Audiovizual məlumatların təşkili və verilməsinin estetik səviyyəsi | |
| 14. | Digər (ekspertin baxımına görə; göstərməli): | |
| **Ümumi psixoloji-pedaqoji qiymətləndirmə 0-dan 10 bala qədər** | | |

Təqdim olunmuş elektron audiovizual tədris sisteminin, ekspertin fikrincə, əhəmiyyətli xüsusiyyətləri (əgər varsa)

______________________________________________________________________________

3. Metodik qiymətləndirmə

| № | Xarakteristika | Qiymət (q/kafi, kafi, yaxşı, əla) |
|---|---|---|
| 1. | ETR-dən istifadə üzrə metodik tövsiyələr | |
| 2. | Materialın ifadə olunmasında istifadə olunan metodikalar | |
| 3. | Biliklərin, bacarıqların, vərdişlərin möhkəmləndirilməsində istifadə olunan metodikalar | |
| 4. | İstifadə olunan tədris tapşırıqlarının metodiki əsaslandırılması | |
| 5. | Təhsil trayektoriyalarının seçiminin mümkünlüyü | |
| 6. | İfadə mürəkkəbliyinin səviyyələrinin olması | |
| 7. | İstifadəçinin tanınması yoluyla öyrənilmiş materialın həcminin avtomatik izlənməsi sistemi (dərslərin gedişi protokolu) | |
| 8. | Modul prinsipinin realizasiyası - bölmə müəyyən fənn və ya mövzu haqqında tam təsəvvür yaradır; modullar yığımı şagirdlərin fərdi və ya qrup tələblərinə cavab verən tədris planını formalaşdırmağa imkan verir. | |
| 9. | Tədris fəaliyyətinin nəticələri üzrə səhvlərin analiz edilməsinin mümkünlüyü | |
| 10. | Aralıq nəzarət formalarının realizasiyasının keyfiyyəti | |
| 11. | Nəzarətin nəticə formasının realizasiyasının keyfiyyəti | |
| 12. | İnternet ehtiyatlarına istinadlar və Web-dən materialların yeniləşdirilmə imkanları | |
| 13. | Digər (ekspertin baxımına görə göstərməli): | |
| **Ümumi metodik qiymətləndirmə 0-dan 10 bala qədər** | | |

| | |
|---|---|
| **ETR-in yekun qiyməti 0-dan 40 bala qədər** | |
| **Verilmiş ETR-in Azərbaycan orta təhsilində istifadə olunması praktik əhəmiyyətə malikdirmi (hə/yox)?** | |
| **Verilmiş ETR-in Azərbaycan texniki peşə təhsilində istifadə olunması praktik əhəmiyyətə malikdirmi (hə/yox)?** | |
| **Verilmiş ETR-in Azərbaycanda əlavə təhsil çərçivəsində istifadə olunması praktik əhəmiyyətə malikdirmi (hə/yox)?** | |

## III. Elektron tədris resurslarının dizayn-erqonomika ekspertizasının Attestatı

| Elektron tədris resursları haqqında əsas məlumatlar | |
|---|---|
| Daşıyıcının tipi | |
| | |

| | |
|---|---|
| Məhsulun adı | |
| Hazırlayan | |
| Hazırlanma ili | |
| Ölkə | |
| Dil(lər) | |
| Fənn(lər) | |
| Şagirdlərin yaşı | |
| Məhsulun təyinatı | |
| Başqa məlumatlar | |

1. İnteraktivliyin qiymətləndirilməsi

| № | Xarakteristika | Ekspertin qiyməti "q/kafi"," yaxşı", "əla" və ya "yox" |
|---|---|---|
| 1. | Klaviaturadan istifadə: simvolların (mətnə) daxil edilməsi | |
| 2. | Siçandan istifadə: aktiv zonalar, idarəetmə düymələri | |
| 3. | Siçanın köməyilə obyektlərin yerinin dəyişdirilməsi | |
| 4. | Mikrofondan istifadə: nitqin tanınması | |
| 5. | PC ilə başqa qurğular vasitəsilə əlaqə (coystik və s.) | |
| 6. | Səhnəyə yerləşdirilmiş interaktiv realistik animasiyalar | |
| 7. | Səhnəyə yerləşdirilmiş interaktiv sintetik animasiyalar | |
| 8. | İstifadəçinin suallarına verilən cavabların sürəti | |
| 9. | İnterfeysin səmimiliyi (köməkçi sözlər, yazılar, arayışlar) | |
| 10. | Səhvlərə düzəliş reaksiyası | |
| 11. | Naviqasiya rahatlığı | |
| 12. | Digər (ekspertin baxımına görə; göstərməli) | |
| **İnteraktivliyin ümumi qiymətləndirilməsi 0-dan 7 bala qədər** | | |

2. Multimedia komponentlərinin və bütövlükdə multimedialılığın qiymətləndirilməsi

| № | Xarakteristika | Ekspertin qiyməti "q/kafi"," yaxşı", "əla" və ya "yox" |
|---|---|---|

| | | |
|---|---|---|
| 1. | Şrift mətni | |
| 2. | Təsviri mətn | |
| 3. | Statik fototəsvir | |
| 4. | Statik qrafik təsvir | |
| 5. | Videofraqmentlər | |
| 6. | 2D animasiya | |
| 7. | 3D animasiya | |
| 8. | Səs sırasının danışıq səsləri komponenti | |
| 9. | Səs sırasının musiqi komponentləri | |
| 10. | Fotopanoramlar | |
| 11. | Sintetik (çəkilmiş) 2D panoramları | |
| 12. | Sintetik (çəkilmiş) 3D panoramları | |
| 13. | Orijinal multimedia komponentləri: (göstərməli) | |
| 14. | Rəngli işlərin harmonikliyi | |
| 15. | Səslərin harmonikliyi | |
| 16. | Pedaqoji məsələlərin həlli üçün multimedia komponentlərinin qarşılıqlı əlaqəsi | |
| 17. | Digər (ekspertin baxımına görə; göstərməli) | |
| **Bütövlükdə multimedia komponentlərinin və multimedialılığın qiymətləndirilməsi 0-dan 7 bala qədər** | | |

3. Kommunikativliyin qiymətləndirilməsi

| № | Xarakteristika | Ekspertin qiyməti "q/kafi"," yaxşı", "əla" və ya "yox" |
|---|---|---|
| 1. | Məhsulun istifadəçisinin texniki təminatı | |
| 2. | Məhsulun istifadəçisinin metodik təminatı | |
| 3. | Mündəricatın yeniləşməsinin realizasiyası | |
| 4. | Kənar proqramların qoşulma imkanları | |
| 5. | İnternet ehtiyatlarının qoşulma imkanları | |
| 6. | Digər (ekspertin baxımına görə; göstərməli) | |
| **Kommunikativliyin qiymətləndirilməsi 0-dan 3 bala qədər** | | |

4. Məhsuldarlığın qiymətləndirilməsi

| № | Xarakteristika | Ekspertin qiyməti "q/kafi"," yaxşı", "əla" və ya "yox" |
|---|---|---|
| 1. | Effektiv naviqasiya | |
| 2. | Kontekstdən asılı mündəricat | |
| 3. | Qlossari | |
| 4. | Verilənlər bazası | |
| 5. | Arayışa müraciət imkanları | |
| 6. | Kontekstdən asılı kömək | |
| 7. | Digər (ekspertin baxımına görə; göstərməli) | |
| **Məhsuldarlığın qiymətləndirilməsi 0-dan 3 bala qədər** | | |

5. Ənənəvi erqanomika göstəricilərinin qiymətləndirilməsi

| № | Xarakteristika | Ekspertin qiyməti "q/kafi"," yaxşı", "əla" və ya "yox" |
|---|---|---|
| 1. | İnterfeysin intuitiv aydınlığı (istifadəçinin fəaliyyəti üçün təlimata gərək olmur) | |
| 2. | İnterfeysin harmonikliyi (artıq yüklənməyib, asanlıqla qavranır) | |
| 3. | İnterfeysin idarəetmə elementlərinin yerləşməsinin optimallığı | |
| 4. | İnterfeysin idarəetmə elementlərinin ölçülərinin optimallığı | |
| 5. | İnterfeysin idarəetmə elementlərinin rənglə seçilməsinin optimallığı | |
| 6. | İnterfeysin idarəetmə elementlərinin formaya görə seçilməsinin optimallığı | |
| 7. | İnterfeysin idarəetmə elementlərinin səsə görə seçilməsinin optimallığı | |
| 8. | Vizual mühitin optimallığı (obyektlərin ölçüləri, obyektlər arasındakı məsafə, eynitipli obyektlərin sayı, şriftlərin ölçüsü və s.) | |
| 9. | Digər (ekspertin baxımına görə; göstərməli) | |
| **Ənənəvi erqanomik göstəricilərin qiymətləndirilməsi 0-dan 4 bala qədər** | | |

Şərh (ekspertin baxımına görə)

| |
|---|
| ___________________________________________________________________________ |
| ___________________________________________________________________________ |
| ___________________________________________________________________________ |
| ___________________________________________________________________________ |
| ___________________________________________________________________________ |
| “ _____ ” _______________ 20____ il |
| ____________________________ ____________________________________ |
| ekspertin imzası soyadı, adı, atasının adı |

Ekspert işlərini tam həcmdə yerinə yetirib, təqdim olunmuş sənədlər üzrə analitik qrupun heç bir qeydi yoxdur.

| |
|---|
| “ _____ ” _______________ 20____ il |
| Katib _______________________ ____________________________________ |
| imzası soyadı, adı, atasının adı |